**İsbəndiyarov Q.K.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.56-67**
**UOT: 34,343.1**

# Həbs qətimkan tədbiri ilə bağlı bəzi məsələlər

**Xülasə:** Məqalə ölkə praktikasında həbs qətimkan tədbirinin tətbiq vəziyyətini, mövcud problemləri və həll yollarını araşdırmağa həsr edilmişdir. Problemlərin genezisini müəyyən etmək üçün qısa tarixi ekskurs edilmiş, mövcud vəziyyətin əsas səbəb qaynağını müəyyən etməyə səy göstərilmişdir. Mövcud qanunvericiliyin beynəlxalq standartlara uyğunluq vəziyyətinin təhliliverilmiş, Avropa Konvensiyasının 5-ci maddəsi ilə bağlı Avropa Məhkəməsinin presedent hüququ, əsas mövqelər və rəhbər müddəalar xülasə edilmişdir.

**Açar sözlər:** həbs; qətimkan tədbiri; Avropa Məhkəməsi; qərar, qanunvericilik.

Qətimkan tədbiri qismində həbs institutunun Azərbaycanın hüquq praktikasında təşəkkülü 19-cu əsrin birinci yarısında Şimali Azərbaycanda çar Rusiyası cinayət-prosessual qanunvericiliyinin tətbiqi ilə başlamışdır. Tədqiqatçılar Rusiyada 1864-cü il Cinayət mühakimə icraatı Nizamnaməsinin qəbulunadək olan dövrdə həbsin yerli-yersiz seçilən əsas qətimkan tədbiri olmasını, təqsirləndirilən şəxsə qarşı fiziki və psixi təsir metodu kimi geniş istifadə olunduğunu qeyd edirlər [21, s.2310]. Təbii ki, çar Rusiyası müstəmələkələrində, o cümlədən bizim coğrafiyada bu sahədə vəziyyət Rusiyanın özündə olduğundan daha acınacaqlı idi.Yeni tarixdə Avropada geniş vüsət alan, həmçinin Rusiyaya sirayət edən demokratik mühakimə ideyaları 1864-cü il Nizamnaməsində lazımi səviyyədə təsbit olunsa da praktikada ciddi dəyişikliyə səbəb olmadı. Cəmiyyət bütünlüklə demokratik reformasiya olunmadan konkret sahələrdə, xüsusən cinayətdə təqsirləndirilən şəxslərin hüquqları kimi əsrlər boyu məlum stereotiplərin mövcud olduğu sahədə ciddi dönüşə nail olmaq mümkün deyildi.

Cinayət hadisəsi fərd və dövlət mənafelərinin ən kəskin şəkildə toqquşduğu təzahürdür. Məlum olan bütün tarix boyu bu toqquşmada dövlətin ittiham edən və cəzalandıran tərəf kimi dominantlığı izlənilir. Cinayət etməkdə şübhəli bilinən və ya təqsirləndirilən şəxsin təcrid edilməsinin elan olunan formal hüquqi məqsədlərindən fərqli olaraq, bu tədbirin əsas qayəsi fərdi dövlət qarşısında çarəsiz duruma salmaqla hakimiyyət hegemoniyasını realizə etmək olmuşdur. Faktiki psixoloji yanaşmada qətimkan tədbiri olan həbs cəzaya bərabər tutulur, fərdin həbsə alınması bir növ cəza mexanizminin işə düşməsi kimi qavranılırdı. Hətta hüquq leksikonunda qətimkan tədbiri olaraq "həbsi" və azadlıqdan məhrumetmə növündə cəza olan "həbsi" fərqləndirmək üçün bir çox dillərdə ayrıca terminlər yaranmamışdır. Günümüzün reallığında sosial şəbəkələrin izlənilməsi onu göstərir ki, əksər vətəndaşlar "... barəsində ... müddətə həbs qətimkan tədbiri seçilmişdir" xəbərinin məhkəməyədək icraat tədbiri və ya cəza olmasının fərqini anlamırlar. Aydındır ki, belə xəbərlərdə "həbs" sözü onları çaşdırır. Ənənəvi ictimai şüurda "həbs", "həbsxana" sözləri cəza ilə asossasiya olunur. Bunu yalnız cəmiyyətin ümumi və xüsusən hüquqi savadsızlığı

♦ **Isbəndiyarov Qələndər Köçəri oğlu -** Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tabeliyində Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin "Hüquqi tədqiqat" şöbəsinin hüquq tədqiqatçısı (Azərbaycan). Email: q.isbandiyarov@gmail.com

ilə izah etmək də yanlış olardı. Həbs qətimkan tədbirinin bir çox halda cəza şiddəti ilə, bir növ cəzanın başlanması kimi tətbiq olunması ənənəvi davam edən acı reallıqdır.

Avropada cinayət mühakimə icraatının reformasiyası, o cümlədən həbs qətimkan tədbiri sahəsində mərkəzi hakimiyyət özbaşınalığını dəf etmə cəhdləri şərti olaraq Böyük Azadlıqlar Xartiyasından (1215) hesablana bilər. Ümumən, Avropa sivilizasiyasının hüquq tərəqqisində anqlosaks hüquq mədəniyyətinin aparıcı rolu qeyd olunmalıdır. İngiltərədə xüsusən 15-ci əsrdən başlayaraq Habeas corpus ideyasının ictimai şüura və siyasətə yeridilməsi uğrunda səylər izlənilir. 1628-ci ildə İcmalar palatasında Habeas corpus haqda qətnamə qəbul edildi. Həmin sənədə əsasən:

- həbs, tutma, azadlığı məhdudlaşdırma üçün hər hansı qanuni səbəb göstərilmədən heç bir azad insan kralın və ya Gizli şuranın əmri ilə həbs oluna, məhbəsdə saxlana və ya digər hər hansı şəkildə azadlığı məhdudlaşdırıla bilməz;

- heç kim habeas corpus tələbindən məhrum edilə bilməz; ... həbsə, tutulmaya məruz qalan hər kəsin vəsatəti ilə habeas corpus təmin edilməlidir;

- həbsin qanuni səbəb göstərilmədən icra edildiyi müəyyən olunduğu halda şəxs ya tam azad edilməli, ya da girov müqabilində buraxılmalıdır.

1679-cu ildə isə Habeas corpus aktının qəbul edilməsi əsassız həbslərlə mübarizədə qəti nailiyyət idi.

Rusiyada 19-cu əsrin sonlarında əsassız həbslərlə bağlı vəziyyətin səbəblərini təhlil edən M.V.Duxovski müstəntiqlərin şəxsiyyətində kök atan mənfi keyfiyyətləri ibtidai istintaqın əsas çatışmazlıqlarından biri kimi qeyd edirdi [18, s.107]. Müəllif bu keyfiyyətlərin nə üçün və necə kök atmasına dair fikrini bildirməmişdir. Məsələ ondadır ki, insan təbiətcə asana qaçmağa və özü üçün ən sərfəli davranış variantlarını seçməyə meyllidir. Üstəlik, arxasında dövlət hakimiyyəti kimi güclü bir resurs varsa, bu resursu öz xeyrinə sui-istifadə etməyə güclü meyl göstərir. Bütün bürokratik orqanlar kimi istintaq oranlarının da özləri üçün ən sərfəli mexanizmləri mənimsəməsi tamamilə təbii prosesdir. Mədəniyyət isə xüsusi maneə mexanizmlərinin yaradılması və onların dəstəklənməsini tələb edir. İstintaq və ya digər hər hansı ictimai fəaliyyətdə qabaqlayıcı və tənzimləyici mexanizmlərin olmaması və ya deklarativ şəkildə mövcud olması prosesin təbii axara buraxılması deməkdir. Hüquqmühafizə orqanları sırasında yeni işə başlayan müstəntiq müəyyən praktika ilə rastlaşır və istər-istəməz onu mənimsəməli olur. Müstəntiq, prokuror və ya hakimlərin şəxsi keyfiyyətləri təməl səbəb deyildir. Problemin mənşəyi çoxdan yaranmış vərdişlər və onlara ciddi maneənin yaradılmadığı üçün davam etməsidir.

19-cu əsrin ikinci yarısında olduğu kimi, 1950-ci illərin sonu, 1960-cı illərin əvvəli SSRİ-də cinayət ədliyyəsini islah etmək istiqamətində görülən tədbilər də gözləninən nəticəni vermədi. Z.Zinatullinin 1970-ci illərə dair apardığı tədqiqatda istintaq olunmuş cinayətlərin yarıdan çoxunda həbs qətimkan tədbirinin seçildiyi qeyd olunmuşdur [19, s.76-77]. V.M.Kornukov yazırdı ki, Saratov vilayətində 1970-ci illərdə məhkəməyə göndərilmiş işlərin 54-60 faizində həbs qətimkan tədbiri seçilmişdir [20, s.80].

Sovet hakimiyyətinin ilk onilliklərdə sərgilədiyi totalitar xarakter, insan hüquqlarına hörmətsizlik, sərt cəza siyasəti ilə cinayətkarlığa qarşı uğurlu nəticələr əldə ediləcəyinə sadəlövh inam, o cümlədən həbs qətimkan tədbirinin müstəsna hallarda deyil,əsas tədbir kimi tətbiqi cinayətkarlığın azalmasına deyil, cinayət ədliyyəsinin bəbad vəziyyətə düşməsinə səbəb olmuşdu. Fikrimizcə, hazırda Azərbaycanın hüquqmühafizə praktikasında davam edən neqativ hallar qeyd olunan yaxın keçmişin ətaləti sayıla bilər.

Maraqlıdır ki, ölkəmizdə hələ də qətimkan tədbirlərinin statistikası aparılmır. Buna görə, müəyyən təşkilatların müstəqil montorinq nəticəsində əldə etdiyi məlumatlara müraciət etməyə məcburuq. Məsələn, İnsan Hüquqları Üzrə Hüquqşünaslar Komitəsinin 2008-ci ilin may-noyabr aylarında apardığı monitorinqin nəticələrinə görə, həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı prokurorluq tərəfindən monitorinq aparılan rayon (şəhər) məhkəmələrinə və hərbi məhkəmələrə 812 təqdimat daxil olub. Daxil olmuş təqdimatlardan 806-sı təmin edilib, cəmi 6 təqdimat üzrə isə başqa növ qətimkan tədbiri seçilib. İttiham tərəfinin həbs qətimkan tədbirinin seçilməsi üzrə məhkəməyə göndərdiyi 812 təqdimatından 60-ı böyük ictimai təhlükə törətməyən, 535-i az ağır, 193-ü ağır, 24-ü xüsusilə ağır cinayətlər üzrə olmuşdur [3]. Həmçinin aşkar olmuşdur ki, həbs qətimkan tədbirinin seçilməsi haqda təqdimatda yazılanlar məhkəmə qərarlarında sözbəsöz təkrarlanır, başqa sözlə “copy-paste” olunur.

Bu məlumatlar geniş ictimai rezonansa səbəb olmuş, Ali Məhkəmənin həmin dövr sədri məsələyə ictimai münasibət bildirmişdi. 2009-cu ildə Ali Məhkəmənin Plenumu “Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” qərar qəbul etdi. Qərarda etiraf edilirdi ki, qanunvericiliyin tətbiqi zamanı bir sıra nöqsanlara yol verilir, xüsusilə verilmiş təqdimatların əsaslılığı ətraflı yoxlanılmır, həbs qətimkan tədbirinin seçilməsinin əsasları qərarda şərh olunmur, bu tədbirin seçilməsinin əsası kimi təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqandan gizlənmək, istintaqın normal gedişinə mane olmaq, çağırışa gəlməmək kimi ümumi ifadələr işlədilir, onların mövcudluğu ehtimalını təsdiq edən hər hansı faktiki hala istinad olunmur [2].

Məsələnin aktuallığı 2010-cu ildə Avropa Məhkəməsinin Azərbaycana qarşı Konvensiyanın [11] 5-ci maddəsi üzrə çıxardığı seriya qərarlarla bir daha diqqət mərkəzinə gəldi. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncami ilə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” [4] qəbul edildi. Milli Fəaliyyət Proqramında qanun layihələrinin hazırlanması zamanı ölkə Konstitusiyasında və ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi, həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında yeni Qanunun qəbul edilməsi, barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbsdə saxlanılmasının qanuniliyinin təmin edilməsi məqsədilə CPM-ə əlavə və dəyişikliklərin edilməsi haqqında qanun layihəsinin hazırlanması, ekstradisiya olunmaq üçün tutulmuş şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə CPM-ə əlavə və dəyişikliklərin hazırlanması, şəxsin tutulması, həbs edilməsi, müvəqqəti saxlama yerində və istintaq təcridxanalarında saxlanması zamanı qanunvericiliyin tələblərinin, insan hüquqlarının pozulması, pis rəftar, vəzifədən sui-istifadə və digər bu kimi halların ciddi araşdırılması, qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi öz əksini tapmışdır.

Milli Fəaliyyət Proqramından irəli gələn qanunvericilik məsələlərinin həlli istiqamətində CPM-ə bir sıra əlavə və dəyişikliklər edilmiş, habelə “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” 22 may 2012-ci il tarixli qanun qəbul edilmişdir. Göstərilən tədbirlərdən sonra İnternetdə arxivlənmiş mətbuat yazılarına nəzər saldıqda müstəqil ekspertlərin praktikada ciddi dəyişiklik olmadığı haqda fikirlərinə rast gəlirik.

Problemin həlli istiqamətində növbəti siyasi qərar Azərbaycan Respubliaksı Prezidentinin “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və

cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı oldu. Sərəncamda qeyd olunur ki, ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur [5]. Sərəncamda qətimkan tədbirləri praktikasının islahatı ilə bağlı yol xəritsi və rəhbər müddəalar irəli sürülmüşdür.

Sərəncamdan irəli gələn vəzifələrlə əlaqədar olaraq 7 aprel 2017-ci il tarixdə Ali Məhkəmə qətimkan tədbirləri praktikasına həsr edilmiş növbəti Plenumunu keçirdi. Plenumda birinci instansiya məhkəmələri tərəfindən 2015-ci ildə təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə və ev dustaqlığında saxlanılma müddətinin uzadılması ilə bağlı təqdimatlara və həbsin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətlərə baxılması təcrübəsinin ümumiləşdirilməsi nəticəsində aşkar edilmiş nöqsanlar müzakirə edilmişdir [9, s.56; 10, s.47-49]. Plenum məhkəmələrə tövsiyə etmişdir ki, şəxsin məhkəməyə gəlməyə təminatların mövcud olduğu təqdirdə, onun azadlıqda qalmasına üstünlük verilməli, həbs qətimkan tədbirinə müstəsna tədbir kimi baxılmalı, məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız qanunda nəzərdə tutulan əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

30 aprel 2021-ci il tarixli Plenumla həmin 2009-cu il tarixli qərarın adı dəyişdirilməklə ("Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında") əsaslı dəyişikliklər edilməsi də məsələnin aktuallığına və Ali Məhkəmənin onu diqqətdə saxlamasına dəlalət edir.

Bu aktları xronoliji icmal etməyimizin əsas məqsədi onu göstərməkdir ki, baxılan sahədə qanunvericilik bazası kifayət qədər təkmildir, normaların həyata keçirilməsi üçün yetərli səviyyədə rəhbər göstəriş və tövsiyələr mövcuddur. Avropa Məhkəməsinin Konvensiyanın 5-ci maddəsi ilə bağlı Azərbaycana qarşı baxılmış qərarlarında göstərilmiş bəzi qanunvericilik boşluqları da həmin qərarlardan sonra aradan qaldırılmışdır. Odur ki, problemin səbəbləri qanunvericilikdə deyil, istintaq-məhkəmə praktikasında çoxdan kök atmış qanunazidd mexanizmlərdə axtarılmalıdır. Həbs qətimkan tədbirinin hələ də yayğın olması, təqdimatlartın yüksək faizlə məhkəmə tərəfindən təmin edilməsi, alternativ tədbirlərin (girovun) tətbiqi faktiki mümkün olsa da məhkəmələrin bundan imtina etməsi bir sıra hallarda ibtidai araşdırmaya prosessual rəhbərlik edən prokurorlarla hakimlər arasında fikirlərin mexaniki olaraq üst-üstə düşməsidir.

Qətimkan tədbirlərinə dair hələ də statistika olmadığına baxmayaraq, problemi araşdıran müəlliflər müxtəlif yollarla bəzi məlumatlar əldə edə bilmişlər. Məsələn, 2022-ci ildə yazılmış elmi məqalədə müəllif qətimkan tədbirlərinin yarıdan çoxunun məhz həbs olduğuna diqqət yetirir [17, s.14].

Tərəfimizdən toplanan məlumatlar da göstərir ki, istintaq orqanları həbs qətimkan tədbiri nəzərdə tutulan cinayət kateqoriyaları üçün həbsi əsas tədbir kimi seçmə meylini hələ də davam etdirirlər. İnkişaf etmiş ölkələrdə həbsə alternativ olaraq girov tədbiri geniş tətbiq edilir. Azərbaycan qanunvericiliyində nəzərdə tutulmasına baxmayaraq girov praktikasının lazımi şəkildə formalaşa bilməməsini praktika işçilər müxtəlif səbəblərlə izah etmişlər:

- girov məbləğlərinin çox olması üzündən maddi imkanı yetərsiz olan şəxslərin girov qoymaqdansa həbsdə olmağa üstünlük verməsi;

- həbs qətimkan tədbirinin girov deyil, digər tədbirlərlə (əsasən, başqa yerə getməmək haqda iltizam, ev dustaqlığı) əvəz olunması haqda vəsatətlər verilməsi;

- vəkillərin və ya hakimlərin maraqlı olmaması;

- ədalətli məhkəmə sisteminin olmaması və maarifləndirmənin zəif olması;

- girov qoyma mexanizminin aydın olmaması [6].

Göstərilən səbəblərin hamısının bu və ya digər dərəcədə rolu vardır. Mütərəqqi alternativ normalar qəbul edib onların görünməz əllə işə düşəcəyini gözləmək əlbəttə yanlışdır. Yeni alternativ normaların işə düşməsi üçün yuxarıdan təkan lazımdır. Son illər əhalini nağdsız hesablaşmalara yönəltmək üçün tətbiq olunan stimullaşdırıcı mexanizmlərin (ədv gerial, keşbek və sair kampaniyalar) nə qədər effektiv olduğuna hamı şahid oldu. Müvafiq stimullaşdırıcı mexanizmlər girov qətimkan tədbirini də kütləviləşdirə bilər. Fikrimizcə, girovun CPM-lə [1] müəyyən olunmuş məbləğləri günümüzün iqtisadi reallıqları baxımından ifrat deyildir. Üstəlik, 2019-cu ildə edilmiş qanunvericilik əlavəsi ilə girov imkanı maddi ziyanla nəticələnmiş ağır cinayətlərə də aid edilmişdir.

Hesab edirik ki, girov pratikasının oturuşması baxımından aşağıdakı keçid dövrü tədbirləri effektiv ola bilər:

- həbs qətimkan tədbiri haqda təqdimatlara baxan hakimlər digər daha yüngül tədbirlə əvəz edilməsini mümkün gördükdə təqsirləndirilən şəxsə girovu təklif etməli, onun mahiyyətini izah etməlidirlər;

- girovun digər tədbirlərlə (başqa yerə getməmə haqda iltizam, ev dustaqlığı və sair) birgə tətbiqini mümkün edən qanunvericilik imkanı yaradılmalıdır;

- girovun likvid vəsait olaraq müvafiq hesaba dərhal ödənişini və ya əmlak olaraq qısa zamanda təqdimatını mümkün edən praktik mexanizm yaradılmalıdır.

Girov praktikasının kütləvilşməsi müvafiq depozit hesabda on milyonlarla vəsaitin toplanması, faizlər şəklində dövlət büdcəsinə yeni mənbə vəsaitinin daxil olması deməkdir. Digər tərəfdən, təcridxanaların həddən artıq yüklənməsi, şəraitsizlik kimi mənfi amillərin, habelə təcridxanada saxlama xərcələrinin azalmasına tövhə olacaq.

Təqsirləndirilən şəxsin həbsdə olmaması öz müdafiəsini daha yaxşı təşkil etmək və bununla da çəkişmə prinsipi reallığını gücləndirməkdən əlavə, xüsusən də maddi zərər cinayətlərində təqsirkar şəxslərin zərəri ödəmək üçün öz tərəfindən səy göstərməsinə daha geniş imkanlar yarada bilər.

Nəhayət, mədəni tərəqqi azadlığın dəyərinin yüksəldilməsini özündə ehtiva edir. İnsanlar 5 min manat girov ödəməkdənsə aylarla ibtidai həbsdə qalmağa üstünlük verirlərsə, həmin cəmiyyətdə mədəni vəziyyət çox acınacaqlıdır deməkdir.

Rəyi soruşulan vəkillərdən biri girov haqda vəsatəti dəfələrlə verməsinə baxmayaraq vəsatətin təmin olunmadığını bildirmişdir. Onun bildirdiyinə görə, hakimlər CPM-in 155.1 və 155.2-ci maddələrində göstərilən hallara mexaniki istinad etməklə vəsatəti rədd etmişlər. Halbuki, Ali Məhkəmə Plenumunun “Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında” 3 noyabr 2009-cu il tarixli qərarında göstərilir ki, məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız CPM-nin 155-ci maddəsində göstərilən prosessual əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-

edilməməsini yoxlamalıdırlar. Bu zaman təqsirləndirilən şəxsin törətdiyi cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, onun şəxsiyyətini səciyyələndirən məlumatlar, o cümlədən yaşı, ailə vəziyyəti, məşğulluq növü, sağlamlığı və bu kimi digər hallar nəzərə alınmalıdır[2].

Qeyd edək ki, Avropa Məhkəməsi qərarlarının və müxtəlif vəsaitlərin azərbaycan dilinə tərcümə səviyyəsi qənaətbəxş deyildir. Bu isə həmin vəsaitlərin elmi tədqiqatçılar tərəfindən istifadə olunmasını çətinləşdirir. Məsələn, Avropa Konvensiyasının 5-ci maddəsi üzrə Təlimatın azərbaycan dilinə çevrilmiş mətnini [12] anlamaq üçün başqa dillərdə olan mətnlərə müraciət etmək məcburiyyətində qaldıq. Tədqiqatçılar orijinal mətnlərdən istifadə etmək üçün yetərli ingilis və ya fransız dilinə sahib olsalar belə, Avropa Məhkəməsinin istifadə etdiyi terminologiyanın azərbaycan dilinə tərcümə olunma çətinliyi ilə üzləşirlər. Xüsusən, eyni terminlərin azərbaycan dilinə tərcümə edilmiş ayrı-ayrı qərarlarda fərqli söz və terminlərlə ifadə olunduğunu görürük. Odur ki, nəzəri problemlərdən biri də vahid terminoloji tərcümə bazasının olmaması və onun yaradılması istiqamətində müvafiq səylərin göstərilməməsindən irəli gəlir.

Bu məqalə çəriçivəsində qarşıya qoyulmuş digər əsas məqsəd Avropa Məhkəməsinin Azərbaycana qarşı Konvensiyanın 5-ci maddəsi üzrə çıxardığı qərarlarda Məhkəmənin maddi və prosessual hüquqi mövqelərini mümkün qədər anlaşıqlı şəkildə hüquq auditoriyasının nəzərinə çatdırmaqdır.

**1. Həbsin mümkünlüyü**

Konvensiya hüququnda məhkəməyəqədər azadlığın məhdudlaşdırılmasının (tutulma və ya ibtidai həbs qismində) mahiyyətcə mümkünlüyü şəxsi toxunlulmazlıq hüququ ilə ictimai mənafelərin kolliziyası kontekstində baxılır. Təqsirsizlik prezumpsiyasına rəğmən, ictimai mənafelərin (cinayət məsuliyyətinin realizə olunma labüdlüyü) şəxsi toxunlulmzalıq hüququndan ağır gəlməsi həbsin mahiyyətcə mümkün sayılmasının əsasıdır. Təbii ki, şəxsin istinad olunan cinayəti törətmiş olmasına ciddi şübhələrin mövcud olması şərti ilə.

Avropa Məhkəməsi milli orqanların prosessual məcburiyyət qismində tətbiq etdikləri azadlığın məhdudlaşdırılması tədbirlərinini ilk növbədə milli qanunvericiliyə uyğun olmasını yoxlayır. Lakin tədbirin milli qanunvericiliyə uyğun olması özlüyündə yetərli deyil, o həmçinin Konvensiyaya uyğun olmalıdır. Bu məsələdə Məhkəmə “qanunun keyfiyyəti” adlanan meyardan istifadə edir. Milli qanun anlaşıqlı olmalı, onun tətbiq şərtləri və nəticələri öncədən aydın olmalı və bütün bunlar Konvensiyaya zidd olmamalıdır.

Məsələn, “Qarayev Azərbaycana qarşı” 10 iyun 2010-cu il tarixli qərarında Məhkəmə qeyd edir ki, Ekstradisiya məqsədi ilə tutulan şəxslərin həbsdə saxlanılmasını tənzimləyən Azərbaycan qanunvericiliyinin müddəalarında aydınlıq yoxdur, onların tətbiqinin nəticələrini öncədən görmək mümkün deyil və onlar Konvensiya əsasında tələb olunan «qanunun keyfiyyəti» standartına cavab vermir. Müvafiq olaraq, Konvensiyanın 5-ci maddəsinin 1 (f) bəndinin pozuntusu baş verib [8]. Məhkəmə qeyd etdi ki, onun qərarları mahiyyət etibarı ilə deklarativ xarakterlidir. Konvensiyanın 46-cı maddəsində nəzərdə tutulmuş öhdəliyini yerinə yetirmək üçün öz daxili hüquq sistemində istifadə edəcəyi vasitələri seçmək ilk növbədə müvafiq dövlətin öz işidir. Hazırkı işdə 5-ci maddənin 1-ci və 4-cü bəndlərinin pozulduğunu müəyyən etməklə Məhkəmə Hökumətin üzərinə mövcud hüquqi çatışmazlıqları düzəltmək üçün müvafiq ümumi və fərdi tədbirlər görmək öhdəliyi qoydu.

Bənzər olaraq, “Fərhad Əliyev Azərbaycana qarşı” 9 noyabr 2010-cu il tarixli qərarda ərizəçinin maksimum ibtidai həbs müddətinin başa çatmasına baxmayaraq məhkəməyə vermə mərhələsində həbsdə saxlanılmasını qanunsuz hesab etmiş, bu məsələnin Azərbaycan

qanunvericiliyi ilə aydın şəkildə tənzimlənmədiyini qət etmişdi. Odur ki, müəyyən olunmuş tarix aralığında ərizəçinin həbsdə saxlanılması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin pozuntusu sayılmışdı [7].

Qətimkan tədbiri olaraq həbsin seçilməsi haqda normalar Konvensiyaya uyğun olsa belə, bu normaların mövcudluğu həbsin seçilməsi üçün yetərli deyil. Hər bir konkret halda təqsirləndirilən şəxs barəsində niyə məhz həbs tədbirinin seçildiyi əsaslandırılmalıdır. İstintaq orqanı və ya onun həbs barədə təqdimatının təmin edən məhkəmə qanunda həbs üçün göstərilmiş əsasları mexaniki olaraq qərara köçürməklə kifayətlənə bilməz, həmin əsasların mövcudluğuna dəlalət edən konkret hallar göstərilməlidir. Habelə, təqsirləndirilən şəxsin başqa qətimkan tədbiri seçilməsi barədə vəsatətini rədd edən məhkəmə öz qərarını spesifik olaraq əsaslandırmalıdır.

"Zahidov Azərbaycan qarşı" 20.02.14 tarixli qərarında Məhkəmə Azərbaycan məhkəmələrinin CPM-də göstərilən əsasları sadəcə mexaniki sadalaması, onları əsaslandırmaması və nədən ibarət olduğunu araşdırmamasını Konvensiya pozuntusu kimi qiymətləndirilmişdir. Qərarın 68-70-ci bəndlərində qeyd olunur ki, həmin maddələrə istinad etməklə ərizəçinin həbsi girovla əvəzetmə haqda vəsatətini rədd edən zaman ölkə məhkəmələri CPM-nin 155.1-ci və 155.2-ci maddələrində nəzərdə tutulmuş və ərizəçinin işində mövcud olan hallardan hər hansı birini ətraflı şəkildə təsvir etməmişlər. Bakı Apellyasiya Məhkəməsi ümumi sözlərlə və gəldiyi nəticəni əsaslandırmaq üçün hər hansı bir səbəb göstərmədən ərizəçinin arqumentlərinin onun girov qoyulmaqla həbsdən azad edilməsi üçün qənaətbəxş hesab olunmadığını qət etsə də, Məhkəmə qeyd edir ki, Yasamal rayon məhkəməsi və Bakı Apellyasiya Məhkəməsi arqumentləri araşdırmamış və hətta onları təkzib belə etməyə çalışmamışdır. Məhkəmə yuxarıdakıları nəzərə alaraq nəticəyə gəlmişdir ki, ərizəçinin işi üzrə konkret faktları göstərmədən sadəcə olaraq həbsin əsaslarını sadalamaq kimi standart formuldan istifadə etməklə, həmçinin ərizəçi tərəfindən irəli sürülmüş arqumentləri lazımı qaydada araşdırmadan onun girov qoyulmaqla həbsən azad edilməsi barədə vəsatətini rədd etməklə dövlət orqanları ərizəçinin məhkəməyəqədər həbsini əsaslandırmaq üçün əhəmiyyətli və yetərli səbəblər göstərə bilməmiş, buna görə Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinin pozuntusuna yol verilmişdir [16].

**2.Həbsin mümkün müddəti**

Həbs müddətinin uzadılması haqda qərar olmadan şəxsin həbsinin davam etdirilməsi həmçinin Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin pozuntusunu törədir. Belə pozuntular adətən qanuni həbs müddətinin bitdiyi, müddətin uzadılması haqda qərarın müvafiq orqanların səhlənkarlığı üzündən gecikmə ilə çıxarıldığı hallarda baş verir. Avropa Məhkməsi belə hallarla bağlı presedent yaradan mövqeyini "Raninen Finlandiyaya qarşı" 1997-ci il tarixli qərarında [14] əsaslandırmışdır. Həmin mövqe "Fərhad Əliyev Azərbaycana qarşı" 09.11.2010, "Muradəliyev Azərbaycana qarşı" 09.12.2010 və "Novruz İsmayılov Azərbaycana qarşı" 20.02.2014 tarixli qərarların misalında aşağıdakı kimi xülasə oluna bilər:

- təqsirləndirilən şəxs üçün həbsdə qalmanın əsaslı olub-olmaması hər bir işdə xüsusi hallara əsasən qiymətləndirilməlidir. Həbsin davamiyyəti o halda əsaslı hesab oluna bilər ki, təqsirsizlik prezumpsiyasına rəğmən, ictimai marağın əhəmiyyətlilik göstəricilərinin fərdi azadlığa hörmət tələbinə üstün gəldiyi əsaslandırılmış olsun;

- şəxsin cinayət törətməsinə dair əsaslı şübhənin mövcudluğu davamlı həbsin qanuniliyinin *sine qua non* şərtidir, lakin zaman keçdikcə bu artıq kifayət etmir və daxili məhkəmə orqanlarının həbsin davamiyyətinə dair göstərdikləri səbəblərin əsaslı olub-olmaması müəyyən edilməlidir;

- həmin əsaslar "əhəmiyyətli" və "yetərli" olduğu halda, milli orqanların icraatın aparılmasında "xüsusi səriştəl" nümayiş etdirib-etdirmədikləri müəyyən edilməlidir (yəni, icraatı qənaətbəxş operativliklə aparmaları, səhlənkarlıq və ya süründürməçiliyə yol verib-vermədikləri və sair);

- şəxsin ağır cinayət əməlləri törətdiyinə dair əsaslı şübhələrin mövcudluğu onun həbsə alınması üçün kifayət edə bilər, lakin zamanın keçməsi ilə bu əsas qaçılmaz olaraq daha az əhəmiyyətli olur və onun davamlı həbsi şəxsi vəziyyəti nəzərə alınmaqla başqa mühüm səbəblərlə əsaslandırılmalıdır;

- həbs qətimkan tədbiri seçilməsi haqda qərarda işlənmiş standart ifadələrin sonradan həbs müddətinin uzadılması haqda qərarlarda eynən standart təkrarlanması onu göstərir ki, hakimlər inkişaf edən vəziyyəti əks etdirmək və ilkin səbəblərin etibarlı qalıb-qalmadığını yoxlamaq üçün heç nə etməmişlər, bu isə Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinin mənasında "əhəmiyyətli" və "yetərli" sayıla bilməz. Yəni, aylar-illər keçdikcə işin vəziyyətində mütləq dəyişiklik olur, buna müvafiq olaraq, həbs müddətinin uzadılması haqda qərarlarda dəyişən vəziyyəti əks etdirən yeni əsaslandırmalar yoxdursa, deməli bu qərarlar mexaniki olaraq bir-birini təkrarlayır;

- iş üzrə bir neçə təqsirləndirilən şəxs olduqda, həbs müddətinin uzadılması barədə qərarda onların hər birinə dair ayrıca əsaslandırma olmalıdır. Belə qərarların ümumi şəkildə verilməsi özlüyündə Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinə ziddir.

**3.Tutulmadan və ya həbsdən azad etmə**

Tutulma və ya həbsdə saxlamanın bitdiyi müddət tarix və vaxt etibarı ilə dəqiq müəyyən olmalı, şəxsin həmin müddətdən gec olmayaraq buraxılması təmin edilməlidir. "Salayev Azərbaycana qarşı" [15] işdə ərizəçinin qanunla müəyyən edilmiş 48 saatdan 7 saat daha çox (cəmi 55 saat) tutulu vəziyyətdə saxlanılmasını Konvensiyanın 5-ci maddəsinin pozuntusu kimi qiymətləndirilmişdi. Buna görə, tutulmanın başa çatdığı anı müəyyən edərkən şəxsin sərbəstlikdən faktiki məhrum olduğu vaxt dəqiq rəsmiləşdirməlidir. Bu, şəxsin küçədə faktiki saxlanıldığı və ya dindirmə üçün dövlət idarəsinə könüllü gəlib özünü idarənin sərəncamına təslim etdiyi vaxtdır. Şəxsi əşyaların götürülməsi və şəxsin dindirmə üçün gözlədilməsi sonradan tutulma qərarı ilə müşayiət olunursa, nəzərə alınmalıdır ki, şəxsin gözlədildiyi vaxt tutulma müddətinə daxil edilməldir. Eyni qayda həbs qətimkan tədbirinə də aiddir. "Kurt Türkiyəyə qarşı" 1998-ci ildə verilmiş qərarda [13] Avropa Məhkəməsi təsbit etmişdir ki,həbsin tarixi, vaxtı, yeri, səbəbləri, həbs edilənin və həbsi icra edənin adı kimi faktların qeydə alınmaması Konvensiyanın 5-ci maddəsinin məqsədinə birbaşa ziddir. Tutulma və ya həbsin başlanğıc vaxtını dəqiq müəyyən etmək mümkün olmadıqda Məhkəmə ərizəçinin təqdim etdiyi məlumatı əsas götürür. Ümumi mövqeyə görə, vaxtı sübut etmək vəzifəsi dövlətlərin üzərinə düşür vəqeyri-müəyyənliklər ərizəçinin xeyrinə həll edilir.

Tutulma ilə bağlı eyni pozuntu "Fərhad Əliyev Azərbaycana qarşı" [7] işdə də təsbit edilmişdir. Bundan başqa, ərizəçinin həbs müddətinin uzadılması haqda qərar olmadan həbsdə saxlanılması Konvensiyanın 5-ci maddəsinin pozuntusu kimi tanınmışdır

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 12 oktyabr 2012-ci il tarixli qanunla tutulmuş və ya həbs edilmiş şəxslərin müddət başa çatdığı zaman operativ şəkildə azad edilməsini təmin etmək üçün bir sıra yeni normalar müəyyən edilmişdir. Bu qanun həbs yerləri müdiriyyətini də aktiv şəkildə prosesə qoşur. Belə ki, Qanunun 48-ci maddəsinə əsasən, həbs yerinin müdiriyyəti tutulmuş və ya həbs edilmiş şəxsin azad edilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarını dərhal icra etməklə yanaşı, bir

sıra vəzifə və səlahiyyətlərə malikdir. Əvvəla, həbs müddətinin başa çatmasına 7 gün qalmış cinayət prosesini həyata keçirən orqanı məlumatlandırmaq vəzifəsi müəyyən edilmişdir. Müddətin başa çatdığı vaxtadək müddətin uzadılması barədə yeni qərar daxil olmazsa, həbs və tutulmuş şəxsimüvafiq protokol tərtib etməklə dərhal azad etməlidir. Bu qayda uzadılmış həbs müddətlərinə də aiddir. Bundan başqa, girov qətimkan tədbirinin qüvvəyə minməsinə dair məlumat daxil olduğu anda həbs və tutulmuş şəxsi azad etmək vəzifəsi müəyyən edilir.

Beləliklə, ölkənin prosessual məcburiyyət tədbiləri sahəsində qanunvericilik normaları və onların tətbiqinə dair təlimat və tövsiyələr beynəlxalq standartlara uyğun hesab edilməlidir. Mövcud problemlər məlum keçmişin ətaləti kimi baxılmalı, onların dəf edilməsi istiqamətində tədbirlər daha intensiv və daha kəskin olmalıdır.İbtidai siniflərdən başlayaraq xalqın hüquqi maariflənməsinə daha çox diqqət ayrılmalıdır. Hüquqşünasların nəzəri və praktiki materialla təmin edilməsi üçün Avropa Məhkəməsinin presedent yaradan qərarlarının, habelə Azərbaycana qarşı bütün qərarlarının, əlaqəli vəsaitlərin azərbaycan dilinə keyfiyyətli, səhih terminoloji bazalı tərcümələri təmin edilməlidir.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının 2000-ci il Cinayət-Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46950

2. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 3 noyabr 2009-cu il tarixli qərarı. [Elektron resurs]. URL: https://supremecourt.gov.az/az/media/xeberler/hebs-ve-ev-dustaqligi-qetimkan-tedbirlerine-dair-muracietlere-baxilmasi-uzre-168

3. Azərbaycan Ali Məhkəməsi həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmələrin fəaliyyətindən narazıdır. [Elektron resurs]: https://az.trend.az/azerbaijan/society/1537944.html

4. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncami ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı". [Elektron resurs]. URL: president.az/az/articles/view/4017

5. Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/22756

6. Azərbaycanda girov qətimkan tədbirinin tətbiq olunmaması: problemlər və reallıqlar. Elektron resurs: https://az.trend.az/azerbaijan/society/1662193.html

7. Farhad Aliyev v Azerbaijan. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng?i=001-101682

8. Garayev v Azerbaijan. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng?i=001-99218

9. İbayev V. Həbs qətimkan tədbirinin seçilməsi barədə müraciətlərə baxılarkən toqquşan maraqlar arasında tarazlığa necə nail olmalı? *(birinci hissə)* // Ali Məhkəmənin bülleteni. 2017. №1. - s.56-67

10. İbayev V. Həbs qətimkan tədbirinin seçilməsi barədə müraciətlərə baxılarkən toqquşan maraqlar arasında tarazlığa necə nail olmalı? *(ikinci hissə)* // Ali Məhkəmənin bülleteni. 2017. №2. - s.39-53

11. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyası.[Elektron resurs]. URL: Avropa İnsan Hüquqları Konvensiyası və onun protokolları - Manual for Human Rights Education with Young people

12. Konvensiyanın 5-ci maddəsi üzrə təlimat. Azadlıq və toxunulmazlıq hüququ. [Elektron resurs]. URL: konvensiyanin 5-ci - azadliq və toxunulmazliq hüququ

13. Kurt v Turkey. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/fre?i=001-58198

14.Raninen v. Finland. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng?i=001-58123

15. Salayev v Azerbaijan. [Elektron resurs]. URL:https://hudoc.echr.coe.int/eng?i=001-233581

16. Zayidov v Azerbaijan. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng?i=001-194255

17. Məhəmmədov A. Həbs qətimkan tədbirinin seçilməsi zamanı məhkəmələr tərəfindən nəzəaə alınan amillər. // Polis Akademiyasının elmi xəbərləri. № 1 (33), 2022. - s.14-19.

18. Духовской М.В. Русский уголовный процесс. - М.,1905. – 448 с.

19. Зинатуллин З.З. Уголовно-процессуальное принуждение и его эффективность. - Казань, 1981. – 136 с..

20. Корнуков В.М. Меры процессуального принуждения в уголовном судопроизводстве. - Саратов, 1978. - 136 с.

21. Хапаев И.М. История становления и развития законодательства и практики применения меры пресечения в виде заключения под стражу (XIX–XX вв.) // Актуальные проблемы российского права. 2014. № 10 (47). – с. 2310-2315.

**Isbandiyarov G.K.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.56-67**
**UDC: 34,343.1**

## Some issues related to detention

**Abstract:** The article is devoted to the study of the situation of detention in the practice of the country, existing problems and ways to solve them. In order to clarify the genesis of the problems, was made a brief historical excursion and an attempt to determine the root cause of the current situation. Is given an analysis of the state of compliance of the current legislation with international standards, are summarized the case law of the European Court, the main positions and guidelines concerning Article 5 of the European Convention.

**Key words:** arrest; preventive measure; European Court; decision; legislation.

♦ **Isbandiyarov Galandar Kochari oglu -** Legal researcher of the "Legal research" department of Institute of Law and Human Rights the Public Legal Entity under the Center for Legal Expertise and Legislative Initiatives (Azerbaijan). Email: q.isbandiyarov@gmail.com

## References


1. Criminal Procedure Code of the Republic of Azerbaijan of 2000. Available at: https://e-qanun.az/framework/46950 (in Azerbaijani).

2. Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan “On judicial practice on consideration of applications for detention and house arrest” dated November 3, 2009. Available at: https://supremecourt.gov.az/az/media/xeberler/hebs-ve-ev-dustaqligi-qetimkan-tedbirlerine-dair-muracietlere-baxilmasi-uzre-168 (in Azerbaijani).

3. The Supreme Court of Azerbaijan is dissatisfied with the activities of the courts regarding the selection of detention. Available at: https://az.trend.az/azerbaijan/society/1537944.html (in Azerbaijani).

4. “National Action Program to Increase the Effectiveness of the Protection of Human Rights and Freedoms in the Republic of Azerbaijan”, approved by the Decree of the President of the Republic of Azerbaijan dated December 27, 2011. Available at: president.az/az/articles/view/4017 (in Azerbaijani).

5. Decree of the President of the Republic of Azerbaijan “On improving activities in the penitentiary sector, humanizing punishment policy and expanding the application of alternative punishment and procedural coercive measures not related to isolation from society” dated February 10, 2017. Available at: https://president.az/az/articles/view/22756 (in Azerbaijani).

6. Non-application of bail in Azerbaijan: problems and realities. Available at: https://az.trend.az/azerbaijan/society/1662193.html (in Azerbaijani).

7. Farhad Aliyev v Azerbaijan. Available at: https://hudoc.echr.coe.int/eng?i=001-101682

8. Garayev v Azerbaijan. Available at: https://hudoc.echr.coe.int/eng?i=001-99218 (in Azerbaijani).

9. Ibayev V. How to achieve a balance between conflicting interests when considering applications for the choice of a preventive measure of detention? (part one) // Bulletin of the Supreme Court. 2017. №1. - pp.56-67 (in Azerbaijani).

10. Ibayev V. How to achieve a balance between conflicting interests when considering applications for the choice of a preventive measure of detention? (part two) // Bulletin of the Supreme Court. 2017. №2. - pp.39-53 (in Azerbaijani).

11. European Convention for the Protection of Human Rights and Fundamental Freedoms of 1950. Available at: European Convention on Human Rights and its protocols - Manual for Human Rights Education with Young people

12. Manual on Article 5 of the Convention. Right to liberty and security. Available at: konvensiyanin 5-ci – freedom and inviolability rights

13. Kurt v Turkey. Available at: https://hudoc.echr.coe.int/fre?i=001-58198

14. Raninen v. Finland. Available at: https://hudoc.echr.coe.int/eng?i=001-58123

15. Salayev v Azerbaijan. Available at: https://hudoc.echr.coe.int/eng?i=001-233581

16. Zayidov v Azerbaijan. Available at: https://hudoc.echr.coe.int/eng?i=001-194255

17. Mahammadov A. Factors taken into account by the courts during the selection of preventive measures. // Scientific news of the Police Academy. No. 1 (33), 2022. - pp. 14-19. (in Azerbaijani).

18. Dukhovskoi M.V. Russian criminal process. - Moscow, 1905. - 448 p. (in Russian).

19. Zinatullin Z.Z. Criminal-procedural coercion and its effectiveness. - Kazan, 1981. – 136 p. (in Russian).

20. Kornukov V.M. Measures of procedural coercion in criminal proceedings. - Saratov, 1978. - 136 p. (in Russian).

21. Khapaev I.M. The history of the formation and development of legislation and the practice of applying measures of prevention in the form of imprisonment (XIX–XX centuries) // Actual problems of Russian law. 2014. No. 10 (47). - p. 2310-2315 (in Russian).

**Исбендияров Г.К.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.56-67**
**УДК: 34,343.1**

## Некоторые вопросы, связанные с заключением под стражу

**Аннотация:** Изучается состояние применения заключения под стражу в практике страны, существующих проблем и путей их решения. Для выяснения генезиса проблем был сделан краткий исторический экскурс и предпринята попытка определить первопричину сложившейся ситуации. Дан анализ состояния соответствия действующего законодательства международным стандартам, обобщена прецедентная практика Европейского Суда, основные позиции и руководящие положения, касающиеся статьи 5 Европейской конвенции.

**Ключевые слова:** арест; мера пресечения; Европейский суд; решение; законодательство.

♦ **Исбендияров Галандар Кочари оглы** - Исследователь права отдела «Правовые исследования» Института права и прав человека при публичном юридическом лице Центр правовой экспертизы и законодательных инициатив (Азербайджан). Email: q.isbandiyarov@gmail.com